***TƏHSİLİN İDARƏEDİLMƏSİ MƏSƏLƏLƏRİ***
***ВОПРОСЫ УПРАВЛЕНИЯ ОБРАЗОВАНИЕМ***
***İSSUES OF EDUCATIONAL MANAGEMENT***

*UOT 378.4:303.722*

# MÜASİR AZƏRBAYCAN TƏHSİLİNDƏ YENİ HƏDƏFLƏR VƏ GƏLƏCƏK NAİLİYYƏTLƏR

**Solmaz Elçin qızı Hüseynova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCID:** 0009-0004-2643-4111
**E-mail:** solmazhuseynovaaa@gmail.com

***Açar sözlər:*** *təhsil, hədəf, nailiyyət, innovasiya, informasiya texnologiyaları*
***Ключевые слова:*** *образование, цель, достижение, инновации, информационные технологии*
***Key words:*** *education, goal, achievement, innovation, information technologies*

Son zamanlar müasir Azərbaycan təhsilində həyata keçirilən islahatlar, müasir metodların və tendensiyaların tətbiqi gənc nəslin inkişafında mühüm rol oynayır.

Təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi, inklüziv mühitin yaradılması və informasiya-kommunikasiya texnologiyalarının inteqrasiyası Azərbaycan təhsilində qarşıya qoyulan yeni hədəfləri və bu hədəflərə nail olma yolunda atılan addımları təşkil edən mühüm istiqamətlərdir.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev hər zaman təhsilimizə diqqət və qayğı göstərmiş, təhsilimiz üçün böyük töhfələr vermişdir. Məhz onun sayəsində təhsil sistemimiz müasirləşdirildi, təhsil islahatları həyata keçirildi, təhsil müəssisələrinin infrastrukturlaşdırılması sahəsində bir çox tədbirlər görüldü, müəllimlərin sosial statusu yüksəldi, digər ölkələrlə beynəlxalq əməkdaşlıqlar yaradıldı, sağlamlıq imkanları məhdud olan uşaqların təhsili üçün proqramlar hazırlandı, gənclərin xaricdə təhsilinə şərait yaradıldı. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan təhsil strategiyası hal-hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illərdə Prezident İlham Əliyevin təhsilə diqqət və qayğısı sayəsində ciddi nailiyyətlər qazanılmış təhsilimizin gələcəyini təmin edəcək inkişaf proqramları təsdiq olunmuş, irimiqyaslı islahatlar həyata keçirilmiş təhsilin davamlı inkişafına yönəlmiş əsaslı tədbirlər görülmüşdür. Məhz dövlət başçısının səyləri nəticəsində son illər təhsil sektorunun ayrı-ayrı sahələri üzrə 16 inkişafyönlü dövlət proqramı təsdiq olunmuşdur. Hal-hazırda müasir təhsilimizə baxdıqda həyata keçirilməli olan bir sıra hədəflərimizin olduğunu görürük. Elm və Təhsil naziri Emin Əmrullayev Azərbaycan təhsilindəki yeniliklərlə bağlı keçirdiyi brifinqdə bir sıra hədəfləri və prioritetləri qeyd edib:

1. Növbəti illər üçün əsas hədəflərdən biri işğaldan azad olunmuş ərazilərdə (Zəngilan, Tərtər, Füzuli, Laçın) təhsil infrastrukturunun yaradılmasıdır. İşğaldan azad olunmuş ərazilərdə məktəblərin təmiri və yenidən qurulması üzrə bir sıra işlər həyata keçiriləcək.

2. Məktəbəqədər təhsil müəssisələrinə 220 min uşağın cəlb edilməsi də əsas hədəflərdən biridir. Bundan əlavə müdir vəzifələrinə işə qəbul müsabiqə yolu ilə aparılacaq, pedaqoji kadr-

larla təlimlər keçiriləcək, bu sahədə sertifikatlaşdırılma həyata keçiriləcək, heç vaxt bağça olmayan kəndlərdə icma əsaslı qrupların yaradılması davam edəcək [5].

3. Azərbaycan dilinin tədris saatları artırılacaq, tədrisi rus dilində həyata keçirilən siniflərdə bir sıra fənlər Azərbaycan dilində tədris olunacaq.

4. Yeni tədris ilində məktəblərdə dərslik problemi aradan qaldırılacaq, həmçinin ucqar rayonlarda yerləşən məktəblər dərsliklərlə təmin olunacaq [5].

5. Digər bir prioritet isə ümumi təhsildə STEAM layihəsinin tətbiqinin daha da genişləndirilməsidir. Bu sistem texnologiya, mühəndislik, təbiət və riyaziyyat kimi fənlərin əlaqəli şəkildə tədris edilməsini təmin edir. Həmçinin bu yanaşma şagirdlərin analitik düşünmə, yaradıcı yanaşma və problem həll etmə qabiliyyətlərinin inkişafına da təkan verir.

6. Digər bir hədəf isə ümumi təhsildə İKT infrastrukturunun daha da təkmilləşdirilməsi, ucqar rayonlarda və kəndlərdə yerləşən məktəblərin sürətli internetlə təmin olunmasıdır.

7. Həmçinin növbəti tədris ilində peşə təhsilində dövlət sifarişli yerlərin sayının 18 mindən çox olacağı və peşə təhsili müəssisələrinə tələbə qəbulunun sayının 26 minə çatdırılacağı da planlaşdırılır.

8. Ali təhsildə isə nəzərdə tutulan yeniliklərdən biri bəzi ixtisaslarda tədris müddətinin qısaldılmasıdır ki, bunlar əsasən İT, turizm və magistratura səviyyəsində təhsil almağa ehtiyac olmayan ixtisasları əhatə edir.

9. Digər bir hədəf isə dünyanın aparıcı universitetlərində təhsil alan azərbaycanlıların sayının daha da artırılmasıdır [5].

Həyata keçirilməsi nəzərdə tutulan bu hədəflərdən başqa ölkəmizdə təhsil sahəsində bəzi məsələlər də var ki onlar da həllini tapmalı və təhlil olunmalıdır.

Təcrübə göstərir ki, sırf nəzəri xarakter daşıyan, praktiki bilik və bacarıqlarla zənginləşməyən təhsil öz əhəmiyyətini və fundamentallığını itirir. Təhsilin məzmununun formalaşmasında elmi və akademik biliklərlə yanaşı, praktiki bacarıqları inkişaf etdirmək və təcrübənin artırılmasına diqqət etmək vacibdir. İlk növbədə texnoloji və innovativ yenilikləri nəzərə almalı, buna uyğun olaraq təhsili inkişaf etdirməli, həmçinin ümumi təhsil pilləsində şəxsiyyətin hərtərəfli formalaşdırılmasını təmin etməliyik [6].

Bundan əlavə, mənbələrdə qeyd olunur ki, əmək bazarının tələbləri əsas götürülməli, dövlət və özəl müəssisələrin strategiyası təkmilləşdirilməlidir. Həmçinin bütün təhsil pillələrinin; məktəbəqədər təhsilin, ümumtəhsil, peşə və orta ixtisas təhsilinin, ali təhsil müəssisələrinin məzmunu təkmilləşdirilməli, infrastruktur işləri görülməli, təhsil müəssisələrinin mütəxəssis hazırlığını təmin edən işlər davam etdirilməlidir. Ümumi təhsildə peşəyönümü üzrə təmayüllü siniflərin açılması da əsas hədəflərdən biridir. Bu kimi əsas yeniliklər şagirdlərin gələcəkdəki peşə seçiminə və əmək bazarına daha asan uyğunlaşmalarına şərait yaradacaqdır. Müasir Azərbaycan təhsilində yeni məzmunun tətbiq olunması həmdə yeni yanaşmaları tətbiq edən istedadlı pedaqoji kadrları tələb edir. Məhz buna görə də müəllimlərin təlim və inkişaf proqramları ilə bilik və bacarıqlarının artırılması yüksək səviyyəyə çatmalıdır. Həmçinin ali təhsil sahəsində akkreditasiya mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq akkreditasiyadan keçmiş ali təhsil proqramlarının sayının artırılması da əsas hədəflərdəndir [6].

Məktəblərdə mənəvi-psixoloji mühitin yaxşılaşdırılması, tərbiyə işinin sistemli təşkili, məktəb-ailə münasibətlərinin düzgün qurulması, psixoloji xidmətin təkmilləşdirilməsi ən vacib iş istiqamətlərindəndir. Bundan əlavə müasir dövrdə şagirdlərin zərərli informasiyaya çıxışının

asanlaşması təhsil sistemi qarşısında ciddi problemlər yarada bilər. Buna görə də təhsil sahəsində işləyən rəhbər şəxslər, müəllimlər, pedaqoqlar, psixoloqlar ailələrlə sıx əməkdaşlıq qurmalıdırlar. Məktəb rəhbərləri ailə-məktəb münasibətləri ilə bağlı seminarlar, təlimlər keçirməli, maarifləndirmə işləri aparmalı, nəzarət mexanizmlərini təşkil etməli, fövqəladə halların qarşısını almalıdırlar. Hazırda informasiya-kommunikasiya texnologiyaları cəmiyyətin bütün sahələrinə nüfuz etməkdədir. Cəmiyyətimiz texnoloji inqilab ərəfəsində olduğu üçün təhsil sistemi bu kimi dəyişikliklərə hazır olmalıdır. Gənc nəsli baş verən dəyişikliklərə hazırlamaq üçün yeni ixtisaslar, peşələr və sahələr təkmilləşdirilməlidir [6].

Azərbaycanın təhsil sistemində əldə edilən gələcək nailiyyətlər isə bu hədəflərin reallaşdırılması ilə bağlıdır. Yüksək bilik səviyyəsi və dünyagörüşünə malik, iş bazarının tələblərini bilən müasir vətəndaşların yetişdirilməsi ölkəmizin inkişaf etməsinə və onun qlobal müstəvidə tanınmasına şərait yaradacaq.

Beləliklə, müasir Azərbaycanın təhsil sisteminin inkişafı üçün müəyyən edilmiş hədəflər, gələcək nəsillərin keyfiyyətli təhsil almasına, cəmiyyətin irəliləməsinə və akademik uğurların daha da çoxalmasına yönəlmişdir. Gələcəkdə ölkəmizin bu nailiyyətləri əldə etməsi üçün təhsil sahəsində olan bütün maraqlı tərəflər birgə əməkdaşlıq etməlidirlər.

**Problemin aktuallığı.** Müasir Azərbaycanın təhsil sistemində yeni hədəflərin müəyyənləşdirilməsi və gələcək nailiyyətlərin əldə edilməsi gənc nəsillərin inkişafı üçün zəruri bir məsələdir. Təhsildə qarşıya qoyulan bu hədəflər və əldə edilən nailiyyətlər gələcək nəsillərin daha keyfiyyətli təhsil almasını, yeni bilik və bacarıqların əldə edilməsini əhatə edir. Belə yanaşma nəticəsində gənclər qlobal səviyyədə rəqabətə davamlı mütəxəssislər kimi yetişəcək.

**Problemin elmi yeniliyi.** Müasir Azərbaycanın təhsil sisteminin çağdaş dövrə və qlobal dünyaya uyğunlaşması üçün həyata keçirilməsi vacib olan tədbirlər diqqət mərkəzinə çatdırılır. Bu tədbirlər, müasir innovativ tədris metodlarının tətbiqini və beynəlxalq standartlara uyğun təhsil proqramlarının hazırlanmasını əhatə edir.

**Problemin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin və ali təhsil müəssisələrinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Qasımova L.N., Mahmudova R.M.. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012
2. Azərbaycan Respublikasında Təhsilin inkişafı Üzrə Dövlət Strategiyası. Bakı, 2013.
3. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı, 2014.
4. İsmixanov M.A., Bayramov H.B., Vəliyeva S.V. Ali məktəb pedaqogikası. Dərs vəsaiti. Bakı: ADPU nəşriyyatı, 2019.

5.https://www.old.muallim.edu.az/news.php?id=26254

6.https://edu.gov.az/news-and-updates/16731

**С.Е. Гусейнова**

**Новые цели и будущие достижения в современном Азербайджанском образовании**

**Резюме**

Новые цели в современном азербайджанском образовании включают совершенствование информационных технологий, повышение качества системы образования, адаптацию к требованиям современной эпохи и другие важные вопросы. Эти цели, которые должны быть реализованы в будущем, позволят еще больше укрепить систему образования в Азербайджане и повысить ее конкурентоспособность в мировом масштабе.

**S.E. Huseynova**

**New goals and future achievements in modern Azerbaijani education**

**Summary**

New goals in modern Azerbaijani education include improvement of information technologies, improvement of the quality of the education system, adaptation to the requirements of the modern era, and other important issues. These goals, which must be implemented in the future, will make it possible to further strengthen the education system in Azerbaijan and increase its competitiveness on a global scale.

**Redaksiyaya daxil olub:** 15.10.2024